**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ XARİCİ BAZARLARA ÇIXIŞ İMKANLARININ ARTIRILMASI YOLLARI

İxtisas: **5312.01 Sahə iqtisadiyyatı**

Elm sahəsi: **İqtisadiyyat**

İddiaçı: **Aydın Ehtibar oğlu Bəhrəmov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor,
**Eldar Allahyar oğlu Quliyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Eldar Əli oğlu Quliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əlöysəd Əsgər oğlu Əsgərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ________ AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ________ iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrün aktual çağırışları əsas götürülməklə, kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı ölkələrarası iqtisadi və digər xarakterli inteqrasiya əlaqələrinin möhkəmləndirilməsini, beynəlxalq miqyaslı ticarət münasibətlərinin inkişafını, milli aqrar-ərzaq sektorunun xarici ölkələrin müvafiq qurumları ilə qarşılılqlı faydalı əməkdaşlığının genişləndirilməsini tələb edir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının daxili bazarla kifayətlənməsi, sahənin ümumi inkişafının bir sıra, özü də az əhəmiyyətli olmayan potensial imkanlarından məhrum edir.

XXI əsrdə daha da aktuallaşan və aşkar təzahür edən qlobal problemlərin həllində beynəlxalq iqtisadi münasibətlərin, xüsusilə ölkələrarası ticarətin artan əhəmiyyəti, tədqiqatçılar və mütəxəssislər arasında artıq diskussiya obyekti deyildir. Maddi, maliyyə və əmək resurslarından səmərəli və qənaətli istifadə, planetar miqyasda innovasiyaların yayılması və mənimsənilməsi, müştərək səylər tələb edən layihələrin reallaşdırılması məhz beynəlxalq iqtisadi münasibətlərin və xarici ticarətin sivil qaydalarla inkişafı sayəsində mümkün olur. Digər tərəfdən, beynəlxalq ticarət qlobal miqyasda məsrəflərin azalmasına, resursqoruyucu texnologiyaların yayılmasına xidmət etməklə yanaşı, kəskinləşən ekoloji böhran şəraitində təbiətdən səmərəli istifadə potensialını da xeyli fəallaşdırır.

Dünya kənd təsərrüfatı və ərzaq məhsulları bazarı bu baxımdan aktuallığını artırır. Milli iqtisadiyyatların digər sahələrindən fərqli olaraq aqrar sahədə yetişdirilən məhsulların xarici bazarlara çıxarılması imkanları mövcud potensialından səmərəli istifadədən bilavasitə asılıdır. Həmin asılılığın hərtərəfli xarakterizə edilməsi və zəiflədilməsi istiqamətində tədqiqatlara hazırda daha çox ehtiyac hiss olunur. Məsələ ondadır ki, planetar miqyasda istehsal və resurs potensialından istifadədə, inteqrasiya və miqyas effektinin reallaşdırılmasında kənd təsərrüfatı və ərzaq məhsulları xarici ticarətinin imkanları arzuedilən səviyyədə həyata keçirilmir. Problemin həllində kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının artırılması həlledici əhəmiyyətə malikdir.

Sahədə təsərrüfat-iqtisadi fəaliyyətin beynəlmiləlləşməsi, resurslardan səmərəli istifadədən tutmuş, xarici bazarda rəqabət üstünlüklərinin gerçəkləşdirilməsinə qədər olduqca geniş diapazonda problemlərin kompleks tədqiqi zərurətini ortaya qoyur. Milli iqtisadiyyatın dinamik inkişafı dövründə xarici bazarlara çıxış strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi, həmin bazarlara çıxışın daha əlverişli üsul və formalarının seçilməsi, Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara çıxışı mühitinin hərtərəfli qiymətləndirilməsi, həmin subyektlərin xarici bazarlara çıxış qərarının qəbulu üzrə əlverişli alqoritmin seçilməsi, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi və bu kimi bir sıra digər məsələlər öz həllini gözləyir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının aşkar edilməsi, həmin imkanların gücləndirilməsi, aqrar-ərzaq sektorunun ixrac yönümünün dəstəklənməsi aqrar siyasətin prioritet istiqamətləri olaraq bəyan edilmişdir. Bu prioritetlərin reallaşdırılması müvafiq elmi təminatın formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir. Odur ki, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının artırılması üzrə kompleks araşdırmaların əhatə dairəsi genişləndirilməli, onlar daha intensiv surətdə aparılmalıdır. Bu və digər səbəblərdən tədqiq edilən mövzunun kifayət qədər aktual olduğu qənaətinə gəlmək olar.

Digər tərəfdən, 30 ilə yaxın bir dövrdə çox məhsuldar və münbit, kənd təsərrüfatına yararlı olan torpaqlarımızın 20%-nin işğal altında qalması, nəhayət Azərbaycan xalqının və Ali Baş Komandanın vahid birliyi, milli ordumuzun misilsiz şücaəti və qəhrəmanlığı sayəsində işğalçı Ermənistan silahlı qüvvələrinin darmadağın edilməsi, düşmənin təslimçilik sazişinə imza atmağa məcbur olması, bunun nəticəsində Qarabağın azad edilərək dirçəliş və sosial-iqtisadi inkişaf proseslərinə başlanılması yeni obyektiv reallıqlar və kənd təsərrüfatı məhsullarının çeşidinin genişləndirilməsi, həcminin artırılması üzrə güclü potensial formalaşdırılmışdır. Milli Qarabağ markalı kənd təsərrüfatı məhsullarımızın brendləşdirilməsi və dünya bazaralarına fəal şəkildə çıxarılması üçün geniş miqyaslı işlər görülməsi və şübhəsiz, bunula bağlı dərin, fundamental elmi tədqiqatlar aparılması zərurəti yaranmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin ixrac bazarının şaxələndirilməsi və ən münasib xarici bazarların seçilməsi üçün konkret strategiyaların hazırlanmasını nəzərdə tutan "Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi" 6.3 prioritetinə əsaslanaraq demək olar ki, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının artırılması mövzusunda tədqiqat işi öz aktuallığı ilə xüsusi diqqətəlayiqdir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı Azərbaycanın və bir çox xarici ölkələrin iqtisadçı alimlərinin tədqiqatlarında xarici bazarlara çıxış problemləri, o cümlədən ixrac imkanlarının genişləndirilməsi, müştərək fəaliyyətin iqtisadi-institusional təminatının yaxşılaşdırılması, kənd təsərrüfatı istehsal subyektlərinin ixrac potensialının gücləndirilməsi kimi məsələlər tədqiq olunmuş və tədqiq olunmaqdadır. Həmin problemlər Azərbaycanın iqtisadçı alimləri, o cümlədən akademik Z.Ə.Səmədzadə, İ.A.Alıyev, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, A.Ş.Şəkərəliyev, R.Ə.Balayev, V.H.Abbasov, M.C. Hüseynov, A.K.Ələsgərov, İ.A.Kərimli, E.M.Hacızadə, G.Ə.Gənciyev, Ş.T.Əliyev, V.İ.İsmayılov, E.İ.Emir-İlyasova, F.Ə.Qənbərov, V.Ə.Qasımlı və başqaları tərəfindən araşdırılmış, mühüm müddəalar əsaslandırılmış, böyük elmi və təcrübi əhəmiyyətli təklif və tövsiyələr irəli sürülmüşdür. Xarici iqtisadi ədəbiyyatda müvafiq məsələlər daha çox işlənmişdir. Bu baxımdan, klassik iqtisadi məktəbin nümayəndələri də daxil olmaqla, A.Smit, D.Rikardo, P.Samuelson, V.Nordhaus, F.Kotler, M.Porter, C.Lorens, R.D.Piter Y.F.Avdokuşın, İ.İ.Dyumulen, V.V.Filatov, A.V.Xoxlov, E.A.Mazeina, T.Moilanen, O.M.Tyukarkina, O.Q.Tyapışev və başqalarının xidmətlərini daha məhsuldar və səmərəli hesab edirik.

Aqrar-ərzaq sektorunun ixrac imkanlarının müəyyən edilməsi, iqtisadi-təsərrüfat əlaqələrinin inkişafı və bu kimi bir sıra digər problemlərinin araşdırılması və həllində həmin tədqiqatçıların böyük xidmətləri qeyd edilməlidir.

Bununla belə, ölkəmizin və xarici ölkələrin alimləri kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının artırılmasının daha səmərəli yollarını aşkar etməyi, onların reallaşdırılmasını əsas məqsəd

olaraq qarşılarına qoymamışlar. Odur ki, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının artırılmasının çoxsaylı iqtisadi problemləri öz həllini gözləyir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın kənd təsərrüfatı məhsullarını xarici bazarlara çıxaran istehsal və emal sahələri təşkil edir. Tədqiqatın predmeti kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması imkanlarının genişləndirilməsinin meylləri və qanunauyğunluqları, onları şərtləndirən amillər və iqtisadi münasibətlərdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı mühitinin səciyyələndirilməsindən və ixracın mövcud vəziyyətinin qiymətləndirilməsindən, aqrar-ərzaq sektoru məhsullarının xarici bazarlara çıxarılması imkanlarının artırılması və səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən, müvafiq təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Həmin məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

– kənd təsərrüfatı məhsullarının xarici bazara çıxışının nəzəri-metodoloji əsaslarının tədqiqi;

– aqrar-ərzaq sektorunda istehsal subyektlərinin xarici bazara çıxış üsulları və formalarının müqayisəli təhlili, üstünlük verilməli üsulların müəyyən edilməsi;

– kənd təsərrüfatı məhsulları istehsalçılarının beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodiki əsaslarının araşdırılması, qiymətləndirmə meyarlarının əsaslandırılması, rəqabət qabiliyyətini şərtləndirən əsas amillərin aşkar olunması;

– ərzaq məhsullarının beynəlxalq ticarətinin mövcud vəziyyətinin səciyyələndirilməsi;

– kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara çıxışı mühitinin qiymətləndirilməsi, Azərbaycanda həmin məhsulların ixracının təşviqi sisteminin xarakterizə edilməsi;

– ölkədə kənd təsərrüfatı istehsalı və emalı məhsullarının ixracı ilə bağlı mövcud vəziyyətin qiymətləndirilməsi;

– kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması üzrə qərarın qəbulu alqoritminin təkmilləşdirilməsi üzrə təkliflərin işlənib hazırlanması;

– aqrar ixrac potensialının gücləndirilməsi və sahə məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin işlənib hazırlanması;

– yeni reallıqlar, o cümlədən Qarabağın işğaldan azad olunması ilə bağlı formalaşan güclü potensial da nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsinin istiqamət və vasitələrinin müəyyən edilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat çərçivəsində Azərbaycanın və xarici ölkələrin iqtisadçı alimlərinin kənd təsərrüfatı məhsulları xarici ticarətinin, o cümlədən ixracının inkişafı problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisinin qəbul etdiyi qanunlar, Nazirlər Kabinetinin qərarları və digər normativ sənədlər qəbul edilmişdir.

Xarici ticarətin liberallaşdırılmasına və kənd təsərrüfatında mülkiyyət formalarının müxtəlifliyinə əsaslanan iqtisadi fəaliyyətin və tənzimlənən xarici iqtisadi fəaliyyətin səmərəliliyini əks etdirən müddəalar təqdim olunan tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

Tədqiqat prosesində müşahidə, ümumiləşdirmə, sistemli və müqayisəli təhlil, monoqrafik və digər statistik-iqtisadi üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işinin elmi yeniliklərinə və alınmış nəticələrinə müvafiq olaraq, bir sıra əsas müddəalar müdafiəyə çıxarılır:

–kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi və bununla bağlı maksimum potensialı olan ölkələrin bazarlarında möhkəmlənməsi istiqamətində tənzimləyici və stimullaşdırıcı, həmçinin səmərəli mexanizmlərin işlənməsinə ehtiyac vardır;

–analoji xarici bazarlara çıxışın üstün formalarının və yollarının müəyyənləşdirilməsi, bunlarla əlaqəli potensialın obyektiv qiymətləndirilməsi və fəaliyyət elementlərinin əsaslandırılaraq seçilməsi kifayət qədər fayda verə bilər;

–dünya səviyyəsində və beynəlxalq iqtisadi münasibətlər sistemində kənd təsərrüfatı məhsulları istehsalçılarının adekvat fəaliyyət prinsiplərinin və meyarlarının dəqiqləşdirilməsinə, rəqabətqabiliyyətlilik amilinə önəm verilməsinə zərurət yaranmışdır;

–ixracın əmtəə strukturunun optimallaşdırılması, aqrar sahədə dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, aqrar-ərzaq bazarının üstün amillərinin müəyyənləşdirilməsi və təsnifatlaşdırılması istiqamətlərində tənzimlənmə tədbirləri tələb olunur;

–xarici bazarlara çıxış və orada möhkəmlənmək məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması və motivasiya olunması tədbirlərinin səmərəliliyinin artırılmasına ehtiyac duyulur;

–kənd təsərrüfatı məhsullarının daha optimal və əlverişli xarici bazara çıxışının təmin olunması məqsədilə səmərəli fəaliyyəti özündə ehtiva edən alqoritm-sxemi əsaslandırılmalı və hazırlanmalıdır;

–yeni çağırışlar, o cümlədən Qarabağın işğaldan azad olunması ilə formalaşan perspektivlər nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının xarici bazarlara daha geniş çoğrafi ərazilərdə və həcmdə çıxarılması imkanları üzrə adekvat fəaliyyət istiqamətlərin müəyyənləşdirilməsi və mexanizmlərin hazırlanmasına dair təkliflər və tövsiyə məcmusuna ehtiyac yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi**, ilk növbədə, kənd təsərrüfatı məhsulların xarici bazarlara çıxış imkanlarının artırılması yolları üzrə yeni çağırışlar və reallıqlar əsas götürülməklə, müasir elmi nəzəri-praktiki baxışların formalaşdırılmasından ibarətdir. Digər elmi yeniliklər bunlardır:

–müasir dövrdə xarici bazarlara çıxış strategiyasının formalaşdırılması və reallaşdırılması üzrə nəzəri və konseptual yanaşmaların əsaslandırılmış blok-sxemi hazırlanmışdır;

–xarici bazara çıxışın məqsədəuyğunluğu səbəbləri və çıxış strategiyasından gözlənilən nəticələri şərtləndirən amillər aşkar olunmuş, kənd təsərrüfatı istehsalçısının potensial bazar hesab etdiyi ölkələrin idxal imkanlarının qiymətləndirilməsi meyarları müəyyən edilmişdir;

–aqrar-ərzaq sektorunda fəaliyyət göstərən istehsal subyektinin xarici bazara çıxış üsulları müqayisəli təhlil edilmiş, hər bir konkret halda hansı üsula üstünlük verilməsi imkanı qiymətləndirilmiş, xarici bazara çıxışın nümunəvi planının əsas elementləri səciyyələndirilmişdir;

–kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətinin bazis prinsiplərindən yanaşmaqla, xarici bazarlara çıxışın və aqrar-ərzaq sektorunun üsulları və xüsusiyyətlərinin blok-sxemi hazırlanmışdır;

–kənd təsərrüfatı məhsulları istehsalçılarının beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi meyarları əsaslandırılmış, onların rəqabət qabiliyyətini şərtləndirən əsas amillər aşkar edilmişdir;

–ixracın əmtəə strukturundakı dəyişiklikləri şərtləndirən əsas amillərin təsiri və aqrar istehsala dövlət dəstəyinin məhdudlaşdırılması üzrə öhdəliklərin ölkələrin inkişaf səviyyəsinə görə differensiallaşdırılmasının nəticələri qiymətləndirilmiş, aqrar - ərzaq bazarının təşəkkülünü şərtləndirən amillərin beynəlxalq ticarət əlamətinə üstünlük verilən və xarici amillərin detallaşdırılmasını nəzərdə tutan təsnifatı müəyyən edilmişdir;

–kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara çıxışı mühiti qiymətləndirilmiş, ölkədə fəaliyyətdə olan təşviq sistemi xarakterizə olunmuşdur;

–kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması üzrə əlverişli qərarın qəbul edilməsi alqoritminin təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüşdür;

–kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr işlənib hazırlanmışdır;

–işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi və Qarabağ regionun adlarından ibarət əmtəə nişanları verməklə, ixracyönlü rəqabət qabiliyyətli məhsulların xarici bazarlara çıxış imkanlarının artırılmasının vacibliyi əsaslandırılmışdır və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Əldə edilən nəticələr və əsaslandırılmış təkliflər ölkəmizin kənd təsərrüfatı məhsullarının ərzaq təhlükəsizliyin təminatı və xarici ticarətin liberallaşdırılması meyarlarına uyğun olaraq, aqrar-ərzaq sektorunun inkişafını şərtləndirən amillərin təsirini gücləndirməklə, xarici bazarlara çıxışının asanlaşdırılması və müvafiq imkanlarının genişləndirilməsinə, aqrar-ərzaq sektorunun dayanıqlı və dinamik inkişafı sisteminin səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər.

İrəli sürülən təklif və tövsiyələr kənd təsərrüfatı məhsullarının ixracı strategiya-sının əsaslandırılması və onun reallaşdırılması sisteminin təkmilləşdirilməsi və müvafiq strateyi yol xəritələrinin icrası

prosesində qarşıya çıxa biləcək təcrübi problemlərin həllində də istifadə oluna bilər.

Tədqiqat işinin nəticə və əsas müddəaları iqtisad yönümlü ali təhsil müəssisələrində uyğun fənlərin tədrisi prosesində mühazirə mətnləri hazırlanarkən də faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat əsərinin əsas nəzəri müddəa, nəticə və təklifləri 2017-2019-cu illərdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, AMEA İqtisadiyyat İnstitutu (2017) və Azərbaycan Kooperasiya Universitetinin (2018) keçirdikləri beynəlxalq elmi-praktik konfransların materiallarında öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlər sırasında “Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi məsələləri” (Bakı, 2017), “Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı strategiyasının nəzəri-metodoloji aspektləri” (Bakı, 2017), “Xarici bazarlara çıxış barədə qərarın qəbulu üzrə əlverişli alqoritmin seçilməsi” (Bakı, 2018), “Методы и формы выхода на внешние рынки, особенности аграрно-продовольственного сектора” (Москва, 2018), “Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsi istiqamətləri” (Bakı, 2019) adlı məqalələri göstərmək olar. Ümimilikdə, müəllifin 2-si xaricdə olmaqla 10 elmi əsəri, o cümlədən 7 məqaləsi (biri xaricdə olmaqla) və 3 beynəlxalq konfrans materialı (biri xaricdə olmaqla) dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Giriş (15768 işarə), I fəsil (73957 işarə), II fəsil (62205 işarə), III fəsil (64637 işarə), nəticə (14031 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (17098 işarə) üzrə ümumi həcm 250176 işarədir, dissertasiya 138 səhifədə yazılmışdır. Cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiyanın işarə sayı 233078-dir. Dissertasiyada 8 cədvəl və 9 şəkil verilmiş, 137 adda ədəbiyyat göstərilmişdir.

# İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. öz əksini tapmışdır.

Dissertasiyanın “**Xarici bazarlara çıxışın nəzəri-metodoloji problemləri” adlı birinci fəslində** xarici bazarlara çıxış strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinin konseptual məsələləri tədqiq olunmuş, xarici bazarlara çıxışın üsulları və formaları müqayisəli qiymətləndirilmiş, aqrar-ərzaq sektorunun xüsusiyyətləri aşkar edilmiş, kənd təsərrüfatı məhsulları istehsalçılarının beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodiki məsələləri araşdırılmışdır.

Xarici bazarlara çıxış strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinin konseptual aspektlərinə artan maraq, qloballaşma proseslərinin intensivləşməsi ilə bu və ya digər dərəcədə əlaqədardır. Əlbəttə, məhsul istehsalçılarının, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyət arealını və bazarı genişləndirmək, o cümlədən xarici bazara çıxmaq dəlilləri müxtəlif xarakterli və olduqca çoxsaylı amillərin təsiri altında formalaşır.

Azərbaycanın aqroiqlim potensialı və əhalinin tarixi təcrübəsi, yüksək ixtisaslı kadr potensialı, son illər bu sahəyə demək olar ki, bütün səviyyələrdə diqqətin artması aqrar sahənin milli iqtisadiyyatda artan rolunu şərtləndirmişdir. Aqrar sahənin ixrac potensialının dəstəklənməsi, ölkə iqtisadiyyatının dünya təsərrüfatçılıq sisteminə inteqrasiyası imkanlarını genişləndirir. *“Dünya iqtisadi sisteminə inteqrasiya ölkəmizin xarici iqtisadi əlaqələrin genişləndirilməsinə əhəmiyyətli təsir edəcəkdir”*[1].

Fikrimizcə, xarici bazarın tutumunu və digər imkanlarını hərtərəfli xarakterizə etmək üçün, tətbiq edilən yanaşmalar kifayət qədər fərqlidir. Onların informasiya bazası da ciddi fərqlərə malikdir. Bununla belə, xarici bazarın tutumunu və digər imkanlarını səciyyələndirmək üçün bir çox hallarda kəmiyyətcə bu və ya digər dərəcədə ifadə oluna

---

[1] Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri / İ.H.Alıyev. – Bakı: Elm, – 2008.– 170 s.

bilən aşağıdakı göstəricilər istifadə olunur: “bazarın cari potensialı, bazarda cari tələb, şirkətin mallarına bazarda cari tələb, bazarın perspektiv potensialı, bazarda perspektiv tələb, bazarda şirkətin mallarına perspektiv tələb”[2]. Görmək çətin deyildir ki, bazarın yaxın və orta perspektivə gözlənən potensialının, bazarda perspektiv tələb və digər proqnoz göstəricilərinin ehtimallı xarakteri, növbəti mərhələlərdə bazarın bu və ya digər xarakteristikalarının dəqiqləşdirilməsini tələb edir. Onu da qeyd edək ki, bu dəqiqləşdirmələrdə ekspert texnologiyaları şəriksiz mövqedə olmamalıdır.

Xarici bazarlara çıxış strategiyasının bölmələri sxem şəkil 1-də verilmişdir.




**Şəkil 1. Xarici bazarlara çıxış strategiyasının bölmələrinin quruluşu və tənzimlənməsi amilləri sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Xarici bazarlara çıxış strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinin konseptual aspektləri baxımından ərazi baxımından yeni bazarlara daxil olmanın strateji məsələləri xüsusi aktuallıq kəsb edir[3]. Bu baxımdan məhsulun dəyişməsi tədbirləri, onun xarici bazara

---

[2] Методология исследования операций в системах маркетинга / Под общ. ред. Г.Л.Багиева. СПб, Изд-во СПб ГУЭФ, 2005. – s.23.

[3] Engel, E.M., Valdés, R.O. Optimal Fiscal Strategy for Oil Exporting Countries. IMF, 2000.– 71 p.

yeridilişi texnologiyası, habelə həm məhsulun, həm də onun xarici bazara yeridilişində modifikasiyaları nəzərdə tutan tədbirləri ayrı-ayrılıqda xarakterizə etmək lazım gəlir.

Şəkil 2-də xarici bazarlara çıxışın və aqrar-ərzaq sektorunun üsulları və xüsusiyyətlərinin blok-sxemini hazırlamışıq və fəaliyyət proseslərində bunların nəzərə alınması, strateji qərarların verilməsindən əvvəl diqqətlə baxılması vacib şərtlərdəndir.




**Şəkil 2. Xarici bazarlara çıxışın və aqrar-ərzaq sektorunun üsulları və xüsusiyyətlərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

İşin **“Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracı vəziyyəti və xarici bazarlara çıxış imkanlarının qiymətləndirilməsi” adlı ikinci fəslində** kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətinin mövcud vəziyyətinin qısa xarakteristikası verilmiş, sahədə məhsul

istehsalçılarının xarici bazara çıxış mühiti qiymətləndirilmiş, Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracı vəziyyəti təhlil edilmişdir.

Azərbaycanda ümumi ixrac və idxalda ərzaq məhsulları ixracı və idxalının xüsusi çəkilərinin dinamikası zamanı müşahidə edilən meyillər, ölkəmizin digər MDB ölkələri ilə müqayisədə vəziyyətinin qismən yaxşı olduğunu söyləməyə kifayət qədər əsas vardır. Doğrudur ölkəmizin ümumi ixracda ərzaq məhsulları ixracının payı göstəricisinin artırılması üçün bütün imkanlardan istifadə edildiyini söyləmək çətindir. Bununla belə, artıq əldə edilən dinamika yaxın gələcəkdə ümumi ixrac və idxalda ərzaq məhsulları ixracı və idxalının xüsusi çəkilərinin nisbəti baxımından nikbin olmağa müəyyən əsas verir.

Eyni zamanda, onu da qeyd etməyi lazım bilirik ki, 2005-2019-cu illər ərzində ölkədə ümumi ixrac və idxalda ərzaq məhsulları ixracı və idxalının xüsusi çəkilərinin dinamikası 2015-ci ildən sonra əhəmiyyətli dərəcədə yaxşılaşmamışdır (şəkil 3).




**Şəkil 3. Azərbaycanda ümumi ixrac və idxalda ərzaq məhsulları ixracı və idxalının xüsusi çəkisi, 2005-2019-cu illər, faizlə. Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az/.**

Müasir dövrdə ərzaq bazarlarının formalaşması və inkişafında antiinhisar və idxalı əvəzləmə tədbirlərinin vahid kontekstdə əsaslandırılması bir neçə aspektdə aktualdır[4]. Həmin aspektlərdən ən mühümü ərzaq məhsullarına məsrəflərin azaldılması və bazarda mövqe qazanmaqdır. Belə ki, səmərəli antiinhisar tədbirləri sayəsində rəqabəti dəstəkləmək və istehsala məsrəfləri azaltmağı motivləşdirmək olar. Milli

[4] Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). / B.X.Ataşov. – Monoqrafiya. Bakı, "Kooperasiya" – 2017, – 536 s.

aqrar-ərzaq sektorunda məhsul vahidinə məsrəflərin azaldılması üçün həyata keçirilən kompleks tədbirlər uğurla nəticələndikdə idxalı əvəzləmək imkanı yaranır. Müasir təcrübədə əlbəttə idxalı əvəzləmək üçün təkcə məsrəf amili kifayət deyildir.

Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara çıxışı üçün əlverişli mühitin formalaşmasında sahəyə dövlət dəstəyi mühüm rol oynayır. Həmin dəstəyin gücləndirilməsi, xarici bazarda yerli məhsulların rəqabət qabiliyyətinin yüksəlməsinə xidmət edir[5]**.** Əlbəttə, bu müəyyən intervalda baş verir. Başqa sözlə, xarici bazara çıxarılan kənd təsərrüfatı məhsulları istehsalçılarının məsrəfləri azaltmaq motivini zəiflətməməlidir.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 2016-cı il tarixli 1063 nömrəli fərmanında xarici ölkələrə ixrac missiyalarının təşkili, xarici bazarların araşdırılması, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi ilə bağlı məsələlərə ciddi önəm verilmişdir[6]. Ölkə başçısının bu fərmanı, ilkin araşdırmalardan göründüyü kimi qeyri-neft məhsullarının, o cümlədən kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının stimullaşdırılması və ixracının təşviqi mühitini formalaşdıran başlıca sənəd rolunda çıxış edir. Bundan əlavə, ixracatçılara dəstək məqsədilə "Bir Pəncərə" prinsipi reallaşdırılmışdır və Rəqəmsal Ticarət Qovşağı (https://dth.azexport.az/) yaradılmışdır[7]**.**

Azərbaycanda kənd təsərrüfatının aparıcı mövqeyə malik olduğu qeyri-neft sektorunda ixrac son illər ciddi müsbət dinamika nümayiş etdirir. Eyni zamanda, ixrac əməliyyatlarında iştirak edən subyektlərin sayı, təhlildən göründüyü kimi, ildən-ilə artır.

---

[5] Hüseyn, R.Z. Aqrar sahədə rəqabət qabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları. Bakı, "Avropa"Nəşriyyatı, 2018.– 408 s.

[6] Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 2016-cı il tarixli 1063 nömrəli fərmanı ilə təsdiq edilmiş "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası".

[7] İxrac icmalı. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. 2018, yanvar, №1 (10). – s.15.

2019-cu ildə isə kartof ixracı 2018-ci illə nisbətdə 7,7 % azalmışdır, azalma tendensiyası təzə tərəvəzlərə də aiddir – 5,5 %. Ümumilikdə, 2013-2019-cu illər ərzində təzə tərəvəz ixracı 3,4 dəfə, təzə meyvələr isə 94,2 % artmışdır. 2019-cu ildə təzə meyvə ixracı 336,3 min ton təşkil etmişdir ki, bu da 2018-ci illə müqayisədə 5,4 % artım deməkdir. 2019-cu ildə 2018-ci illə nisbətdə çay, bitki yağları, üzüm şərabı məhsullarının ixracı azalmışdır, artım isə şəkər, meyvə və tərəvəz konservləri, meyvə və tərəvəz şirələri, tünd spirtli içkilər və tütün ixracında qeydə alınmışdır (cədvəl 1).

**Cədvəl 1. Azərbaycan Respublikasında kənd təsərrüfatınınəsas məhsul növləri üzrə ixracın strukturu (min ton)**

| Malların adı | 2013 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-cu il 2013-cü ilə nisbətən (artım/ azalma) |
|---|---|---|---|---|---|---|---|
| Kartof | 53, 94 | 36, 71 | 38, 23 | 57, 60 | 66,56 | 61,79 | 14,6 % |
| Təzə tərəvəz | 65,52 | 83,31 | 124, 52 | 229,70 | 233,33 | 221,2 | 3,4 dəfə |
| Təzə meyvə | 173,24 | 172,98 | 214,35 | 260,70 | 319,20 | 336,34 | 94,2 % |
| Çay | 7,59 | 4,29 | 1,14 | 1,74 | 1,37 | 1,51 | - 5 dəfə |
| Bitki yağları | 36,99 | 23,47 | 10,25 | 9,49 | 10,84 | 8,22 | - 4,5 dəfə |
| Hidrogenləşdirilmiş piylər və yağlar | 29,11 | 25,46 | 2,85 | 3,63 | 3,63 | 6,14 | - 4,5 dəfə |
| Marqarin, digər qida qarışıqları | 20,19 | 27,20 | 2, 97 | 2,63 | 2,77 | 3,36 | - 6 dəfə |
| Şəkər | 249,3 | 220,8 | 108,4 | 61,2 | 44,1 | 62,1 | - 4 dəfə |
| Meyvə və tərəvəz konservləri | 8,71 | 2,88 | 5,77 | 5,96 | 6,69 | 6,93 | - 25,7 % |
| Meyvə və tərəvəz şirələri | 9,83 | 6,73 | 6,12 | 9,63 | 7,49 | 9,87 | 0,4 % |
| Üzüm şərabı, min dkl. | 409,4 | 194,5 | 189,5 | 375,0 | 657,6 | 532,3 | 30 % |
| Tünd spirtli içkilər, min dkl. 100 %-li spirtlə | 602,2 | 369,8 | 361,0 | 390,9 | 142,2 | 299,0 | - 2 dəfə |
| Tütün | 3,46 | 1,94 | 2, 22 | 4,59 | 4,18 | 6,49 | 87,6 % |

***Müəllif tərəfindən tərtib olunmuşdur. Mənbə: Azərbaycanın xarici ticarəti. Bakı, 2018, s. 75-78; Azərbaycanın xarici ticarəti. Bakı, 2019, s. 78-80. Azərbaycanın xarici ticarəti, 2020. Bakı.–220 s.***

Cədvəl 2-də isə Azərbaycan Respublikasında kənd təsərrüfatının əsas məhsul növləri üzrə ixracın strukturu və həcmi dəyər formasında verilmişdir.

**Cədvəl 2. Azərbaycan Respublikasında kənd təsərrüfatınınəsas məhsul növləri üzrə ixracın strukturu (mln. ABŞ dolları)**

| Malların adı | 2013 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-cu il 2013-cü ilə nisbətən (artım/azalma) |
|---|---|---|---|---|---|---|---|
| Kartof | 21,51 | 20,95 | 15,79 | 25,82 | 29,63 | 26,85 | 24,8 % |
| Təzə tərəvəz | 55,60 | 70,69 | 113,20 | 184,21 | 202,79 | 214,13 | 3,8 dəfə |
| Təzə meyvə | 173,31 | 220,09 | 243,43 | 292,00 | 324,78 | 361,37 | 2,1 dəfə |
| Çay | 44,34 | 19,50 | 6,18 | 10,23 | 9,37 | 9,51 | - 4,7 dəfə |
| Bitki yağları | 110,01 | 55,93 | 10,71 | 9,89 | 9,35 | 7,40 | - 14,9 dəfə |
| Hidrogenləşdirilmiş piylər və yağlar | 72,81 | 49,55 | 3, 46 | 4,57 | 4,66 | 7,28 | - 10 dəfə |
| Marqarin, digər qida qarışıqları | 45,04 | 47,85 | 2, 94 | 2,59 | 2,82 | 3,61 | - 12,5 dəfə |
| Şəkər | 243,64 | 212,09 | 62,03 | 39,52 | 24,97 | 26,88 | - 9,1 dəfə |
| Meyvə və tərəvəz konservləri | 12,03 | 3,95 | 5,15 | 5,21 | 7,75 | 9,19 | - 24,3 % |
| Meyvə və tərəvəz şirələri | 9,93 | 6,91 | 6,26 | 10,26 | 9,67 | 11,18 | 12,8 % |
| Üzüm şərabları | 6,90 | 3,79 | 3,59 | 6,01 | 7,72 | 7,34 | 9,4 % |
| Tünd spirtli içkilər | 20,07 | 20,14 | 14,47 | 14,55 | 6,58 | 14,47 | - 38,7 % |
| Tütün | 10,76 | 7,43 | 7,98 | 14,27 | 12,73 | 13,6 | 26,4 % |

***Müəllif tərəfindən tərtib olunmuşdur. Mənbə: Azərbaycanın xarici ticarəti. Bakı, 2018, s. 75-78; Azərbaycanın xarici ticarəti. Bakı, 2019, s. 78-80. Azərbaycanın xarici ticarəti, 2020. Bakı.–220 s.***

Dissertasiya işinin **“Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi və səmərəliliyin yüksəldilməsi” adlı üçüncü fəsildə** xarici bazara çıxış barədə qərarın qəbulu üzrə əlverişli alqoritmin seçimlmiş, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılmış, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış sisteminin səmərəliliyinin yüksəldilməsi yolları müəyyən olunmuşdur.

Xarici bazarda fəaliyyətin taktiki planlaşdırılması təcrübəsi növbəti addımların işlənib hazırlanması və həyata keçirilməsini nəzərdə tutur:

- aqrobiznesin imkan və problemlərinin mümkün detallaşdırma səviyyəsində müəyyən edilməsi;
- aqrobiznesin özünəməxsus və real məqsədlərinin müəyyən edilməsi;
- proqramın icrası üzrə məsul olan şəxslərin (qurumların) təyin edilməsi;

- işlərin və proqramın icrası üzərində nəzarətin qrafikinin işlənib hazırlanması;

- məqsəd və proqramlardan proqnoz və büdcələrə keçid.

Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması üzrə əlverişli qərarın qəbul edilməsi alqoritminin addımlarının ardıcıllığını şəkil 4-dəki kimi məqsədəuyğun hesab edirik.




**Şəkil 4. Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması üzrə əlverişli qərarın qəbul edilməsi alqoritminin addımlarının ardıcıllığı sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Deyilənləri xülasə edərək bildirək ki, kənd təsərrüfatı müəssisələrin xarici bazara çıxışı barədə qərarın qəbulu üzrə tövsiyə olunan alqoritmin təkmilləşdirilməsi məqsədilə bir sıra məsələlərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

- xarici bazara çıxış sisteminin determinasiyalılığı azaldıqca alqoritmin addımları və onların ardıcıllığında müşahidə edilən fərqlər özünü daha əyani şəkildə göstərir;

- müxtəlif üsul və vasitələrin eyni zamanda tətbiq olunduğu halda ekspert texnologiyaları ekonometriyanın digər üsul və vasitələrinin tətbiqi nəticələrini yoxlamaq üçün əlavə imkan kimi nəzərdən keçirilməlidir;

- xarici bazarın təhlili mərhələsində sosial xarakterli göstəricilərin əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğundur;

- istehsal müəssisəsinin müqayisəli rəqabət üstünlüklərinin müəyyən edilərkən işçi heyətin xarakteristikaları qismində, innovasiyalara açıqlıq dərəcəsi göstəriciləri təhlilə cəlb olunmalıdır;

- müəssisəsinin xarici bazardakı fəaliyyətinin taktiki proqramı işlənib hazırlanarkən həmin fəaliyyəti detallaşdırılmış mərhələ və addımlara bölməklə yanaşı, təminat altsistemlərinin (maliyyə, kadr, informasiya və digər təminat altsistemləri) keyfiyyətinə birmənalı tələblər qoyulmalıdır;

- müəssisənin xarici bazarda fəaliyyətinin nəticələrinin təhlilinin səmərəliliyi, müəssisənin xarici bazara çıxış proqramı əsaslandırılarkən üstünlük verilən prinsiplərə və metodologiyaya əsaslanmalıdır. Əks halda kənd təsərrüfatı müəssisəsinin xarici bazarda fəaliyyətinin edilən təshihlər lazımi səmərə verməyə bilər.

Məhsulun satışı bazar iqtisadiyyatında ictimai istehsalın mərkəzi həlqəsi kimi nəzərdən keçirilir. Məqbul işgüzar fəallığın təmin olduğu şəraitdə bazarın müvafiq seqmentində təklifin tələbə nisbətən üstün tempə malik olması nadir hal deyildir. Aqrar-ərzaq sektorunun, xüsusilə kənd təsərrüfatı məhsullarının xarici bazara çıxışı sistemi iqtisadi, sosial və ekoloji səmərəliliyə beynəlxalq və milli miqyasda qoyulan tələblərə cavab verməlidir. Xarici ticarət sisteminin, o cümlədən kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyi kifayət qədər geniş və qarşılıqlı əlaqəli göstəricilər qrupu ilə xarakterizə olunur. İxrac bazarının şaxələndirilməsi, sahənin dayanıqlı inkişafında həlledici rol oynamaqla yanaşı, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsi istiqaməti kimi də diqqətə layiqdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, (Prioritet 6.3. Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi) hazırda ixrac bazarının şaxələndirilməsi məqsədilə müvafiq strategiyalar hazırlanmaqdadır. Bu proses davamlı olmaqla, ölkənin yaxın və orta perspektivdə ixracı nəzərdə tutulan əsas məhsullar üçün bazarlar müəyyən edilir[8].

Azərbaycanda son onillikdə aqrar sahənin inkişafını, o cümlədən ÜTT-yə daxilolma prosesini sürətləndirə biləcək mühüm addımlar atılmışdır[9]. O cümlədən daxili kənd təsərrüfatı istehsalına dövlət himayəsi sisteminin formalaşması və inkişafı tempi yüksəldilmiş, sahədə innovasiya fəallığının təşviqi sistemi təkmilləşdirilmiş, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının yerinə yetirilməsi sayəsində ölkənin kənd ərazilərində istehsal və sosial infrastrukturu yaradılmışdır. Həmin infrastruktur şəbəsində zəruri modernləşdirmələr aparılır

Kənd təsərrüfatı məhsulları xarici ticarətinin tənzimlənməsi sistemi tarif və qeyri-tarif üsullarının tətbiqi mühitinin tələblərinə adekvatlığını nəzərdə tutur. Odur ki, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı proseslərinin tənzimlənməsi sisteminin tarif və qeyri-tarif üsullarının tətbiq mühitinin tələblərinə adekvatlığını təmin edilməsi üçün sahənin ixrac potensialının gücləndirilməsi perspektivləri nəzərə alınmaqla həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirilməlidir.

Beləliklə, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsi istiqamətləri kimi bunları qeyd etmək olar: 1) idxal - ixrac əməliyyatlarının həyata keçirilməsinin optimal mexanizmi formalaşdırılmalı; 2) ixrac fəaliyyətinin şaxələndirilməsinin optimal həddi müəyyən edilməli; 3) yerli istehsalçılara xarici bazarlarda öz mövqelərinin möhkəmləndirilməsi istiqamətində dəstək

---

[8] Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. / – Bakı, 2016. – s.108-109.

[9] Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı: Kooperasiya, 2018. – 480 s.

verilməli; 4) milli brend yaratma alt sisteminin təşəkkülü sürətləndirilməli; 5) xarici bazarlara çıxış sistemində təzə və emal olunmuş kənd təsərrüfatı məhsullarının nisbəti optimallaşdırılmalı; 6) xarici bazarlara çıxışı barədə qərarların hazırlanması və icra olunmasında dövlət - özəl bölmə əməkdaşlığı imkanlarından maksimum istifadə olunmalıdır və s.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr yer almışdır:**

1. Xarici bazara çıxışın məqsədəuyğunluğu aşağıdakı səbəblərlə şərtlənə bilər: əlavə gəlir, konkret məhsulun daxili bazarda satış qiymətinin xarici bazardakı qiymətdən əhəmiyyətli dərəcədə aşağı olması; müvafiq seqmentlərin daxili və xarici bazarlardakı xarakteristikaları, onlar arasında yerli istehsalçının nöqteyi-nəzərindən daxili bazarın xeyrinə olmayan fərqlər; vergi rejimində ölkələrarası fərqlər; fəaliyyət inteqrasiyasının pozitiv nəticələrinin reallaşma dərəcəsindəki əhəmiyyətli fərqlər; loqistik sistemin təşəkkülü və inkişafı səviyyəsi. Xarici bazara çıxışın iqtisadi motivlərinə, ilk növbədə əlavə gəlir əldə edilməsi, sosial motivlərinə yerli istehsalçıların fəaliyyətinin gəlirliyini, texnoloji motivlərə isə aqrar-ərzaq sektoru məhsullarının emalı texnologiyasının mütərəqqi norma və standartlara uyğunlaşdırılması aid edilməlidir.
2. Xarici bazarlara çıxış strategiyasından gözlənilən nəticələr strateji təhlilin metodikasının seçilməsi meyarları, ilkin məlumat bazasının vəziyyəti, qlobal çağırışlara münasibət, strateji prinsiplərə riayət edilməsi dərəcəsi, institusional dəstək imkanları və ictimaiyyətlə məsləhətləşmələrdən yararlanma dərəcəsi ilə yanaşı, müvafiq fəaliyyət planının keyfiyyətindən, sonuncu isə öz növbəsində xarici bazara çıxış alqoritmindən asılıdır. Bu məqsədlə kənd təsərrüfatı məhsulları istehsalında məhsul təklifində əhəmiyyətli paya malik olan istənilən istehsalçı qurum potensial bazar hesab etdiyi ölkələri, ilk nvbədə aşağıdakı meyarlar üzrə fərqləndirməlidir: alqı-satqının virtual məkanı kimi bazarın cəlbediciliyini ifadə edən bazarın tutumu; bazar

konyunkturunda tərəddüdlərin amplitudu; tələb-təklif nisbətinin dinamikası; istehsal subyektinin fəaliyyət mühiti üçün xarakterik olan risklərin səviyyəsi; potensial xarici bazar iştirakçıları ilə müqayisədə istehsal subyektinin rəqabət qabiliyyəti.

3. Xarici bazarların əlverişliliyi qiymətləndirilərkən aşağıdakı parametrlər nəzərə alınmalıdır: bazarın cəlbediciliyi, rəqabət üstünlüyü, investisiya və əməliyyat riskləri. Xarici bazarlara çıxış variantları müqayisə edilərkən, ilk növbədə aşağıdakı amillərin nəzərə alınması məqsədəuyğundur: bazara daxil olma sürəti (müddəti); bu və ya digər bazara çıxışın birbaşa və dolayı məsrəfləri; mümkün risklərin səviyyəsi; investisiyaların ödənməsi müddəti; rəqabətin kəskinlik dərəcəsi; bazarın yerləşdiyi ölkədə əhalinin məcmu alıcılıq qabiliyyəti. Bununla belə, xarici bazara çıxmağın - vasitəçilər olmadan (birbaşa ixrac) və vasitəçinin iştirakı ilə, onun infrastrukturundan istifadə etməklə əmtəə və xidmətlərin ölkə sərhədlərindən kənarda satılması, beynəlxalq əmtəə hərracları, müştərək sahibkarlıq fəaliyyəti, müqavilə üzrə idarəetmə kimi üsulları müqayisəli təhlil edilməli, hər bir konkret halda hansı üsula üstünlük verilməsi imkanı qiymətləndirilməlidir.

4. Kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara tədricən çıxması və həmin bazarı mərhələ-mərhələ mənimsəməsi özünü doğruldur. Məqsəd ehtimal olunan riskləri minimuma endirməkdir. Bir neçə ölkənin aqrar-ərzaq bazarına çıxış olduqca böyük vəsait və əmək sərfi, habelə hərtərəfli hazırlıq tələb edir. İşdə aqrar-ərzaq sektorunda fəaliyyət göstərən istehsal subyektinin xarici bazara çıxması üzrə nümunəvi planın metodiki və informasiya təminatının əsas elementləri müəyyən olunmuşdur.

5. Kənd təsərrüfatı məhsulları istehsalçılarının beynəlxalq iqtisadi fəaliyyətinin hazırda istifadə edilən səmərəlilik meyarlarının özünəməxsusluğu, ilk növbədə milli ərzaq təhlükəsizliyində və onun davamlı təminatında kənd təsərrüfatının aparıcı rol oynaması, sahənin aqroiqlim amillərindən birbaşa asılılığı ilə əlaqədardır. Konkret sahənin beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyi onun özü, habelə fəaliyyət göstərdiyi ölkə üçün gətirdiyi fayda ilə ölçülməlidir. Ölkə hüdudlarından kənarda müəssisənin hər hansı iqtisadi fəaliyyəti onun maliyyə durumunu yaxşılaşdırmalı, təmsil ediyi ölkənin iqtisadi qüdrətini yüksəltməli, dövlətin imicini yaxşılaşdırmalıdır.

6. Müəssisənin beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi meyarları kimi aşağıdakılar tövsiyə olunur: ixracın həcminin dəyişməsi dinamikası, ixrac edilən məhsulun rəqabət qabiliyyəti, ixrac edilən məhsulun innovativliyi, ixracın mənfəətliliyi. Beynəlxalq miqyasda iqtisadi fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçısının rəqabət qabiliyyətliliyinə, ilk növbədə aşağıdakı amillər təsir edir: texnoloji və marketinq innovasiyaları, uzunmüddətli tələbin miqyasında baş verən dəyişikliklər, fəaliyyətin səmərəlilik səviyyəsində baş verən dəyişikliklər, texnoloji nailiyyətlərin yayılması arealı və dərəcəsi, qeyri-müəyyənliyin və riskin azalması, bazarın dövlət tənzimlənməsi sistemi.

7. Postsovet məkanı ölkələri üçün ərzaq məhsullarının beynəlxalq ticarətində loqistik sistemin təkmilləşdirilməsi prioritetləri qismində aşağıdakılara önəm verilməlidir: xarici bazarlar barədə informasiyalara müraciətin asanlaşdırılması, bazar araşdırmalarında öz tələbləri və verilənləri ilə iştirak imkanlarının genişləndirilməsi, kommersiya sirrlərinin qorunmasında transmilli şirkətlərin qeyri-qanuni və ya qanunvericilklə qadağan olunmayan, lakin postsovet məkanı ölkələri üçün yeni olan müdaxilələrdən etibarlı qorunmanın təmin edilməsi.

8. Ərzaq məhsullarının beynəlxalq ticarətinin mövcud vəziyyətində geni dəyişdirilmiş məhsulların, konkret ölkənin daxili bazarına buraxılmaması üçün etibarlı mexanizmin hazırlanması aktual məsələ kimi qiymətləndirilir. Ümumdünya Ticarət Təşkilatının bu məsələ ilə əlaqədar sənədləri və konkret ölkənin mövcud qanunvericiliyi arasında ziddiyyətli məqamlar adətən sonuncunun xeyrinə həll olunur. Bununla belə, son onillikdə geni dəyişdirilmiş məhsulların dövriyyəsi ilə əlaqədar kompromis axtarışı qida təhlükəsizliyi və beynəlxalq ticarətin liberallığı meyarları üzrə həyata keçirilir.

9. Ərzaq və kənd təsərrüfatı məhsullarının tədricən bahalaşmasının və bu prosesin cəmiyyətin ən müxtəlif inkişaf dövrlərində müşahidə edilməsinin digər obyektiv və subyektiv səbəbləri vardır. Belə vəziyyət aqrar sahənəın aşağı gəlirliyindən tutmuş, qlobal ərzaq təhlükəsizliyinin təminatının iqtisadi məqsədəuyğunluq problemlərinə qədər geniş diapazonu əhatə edən amillərlərlə şərtlənir.

10. “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən ölkə ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi, sahibkarlara fəaliyyət növlərinə görə verilən icazələrin sayının dəfələrlə azaldılması, yeni qaydaların tətbiqinə qədər verilmiş və qüvvədə olan lisenziyaların müddətsiz elan edilməsi, “bir pəncərə” prinsipinin tətbiqi ixracçıların işini çox asanlaşdırmışdır. Bununla yanaşı, “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyəti istehsalçıların fəaliyyətlərinin zəmanətli əsasda həyata keçirilməsi və zərurət yarandıqca bazarın geniş seqmentləri üzrə müdaxilə tədbirlərinin görülməsi baxımından mühüm alət kimi çıxış edir.

11. Azərbaycanda kənd təsərrüfatı məhsulları ixracının coğrafiyası genişlənmək-dədir. Təzə tərəvəz ixrac edilən ölkələr sırasına İraq, təzə meyvə ixracçıları sırasına Almaniya, İtaliya, Fransa, İsveçrə, Polşa, meyvə və tərəvəz şirələrinin ixrac arealına inkişaf etmiş Avropa ölkələri ilə yanaşı ABŞ, Avstraliya və Malayziya daxil olmuşdur. Sadalanan ölkələrə ixrac Azərbaycanda meyvə və tərəvəz şirələrinin keyfiyyətinə nəzarət infrastrukturunun formalaşdığına dəlalət edir. Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması proseslərinin səmərəliliyini yüksəltmək üçün Azərbaycanda elektron gömrük xidmətlərinin əhatə dairəsi genişləndirilmiş, malların gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” sistemi tətbiq edilmiş, Qazaxstanın Aktau şəhərində logistika mərkəzi istifadəyə verilmiş, Rusiyanın Yekaterinburq şəhərində anoloji mərkəzin inşasına başlanmışdır.

12. Hazırda aqroemal məhsullarının ixracının səmərəliliyi əsasən aşağıdakı amillərlə şərtlənir: iş yerlərinin açılması, habelə yerli emal müəssisələrinin fəaliyyət dairəsinin genişləndirilməsi, ixrac edilən məhsulun daşınma və saxlanma qabiliyyətinin yüksəlməsi, itkilərin həlledici dərəcədə aşağı düşməsi, həmin məhsulların bazar konyunkturunda baş verən kəskin tərəddüdlər zamanı satışının təşkilində daha geniiş manevr imkanlarının olması və i.a.

13. Araşdırmalarımız Azərbaycanda kənd təsərrüfatı məhsulları ixracının səmərəliliyinə mənfi təsir edən aşağıdakı amilləri aşkar etməyə imkan vermişdir: beynəlxalq ticarətdə təcrübənin azlığı səbəbindən risk ehtimalının yüksək olması, xarici bazarın araşdırılması

sisteminin təşəkkül mərhələsində olması, yüksək ixtisaslı yerli kadrların çatışmaması, aqrar elmə, beynəlxal marketinq üzrə elmi kadr hazırlığına dəstək mexanizminin təşəkkül mərhələsində olması; istehsal subyektlərinin kiçik ölçülü olması, kooperasiya hərəkatının inkişafının tempi və miqyasının arzu olunan səviyyəsinin əldə edilməməsi, idxalın əvəzlənməsi istiqamətində ölkə qarşısında ciddi vəzifələrin durması, kənd təsərrüfatına davamlı və sistemli dövlət dəstəyi şəraitində belə sahənin aşağı gəlirli olması və s. Göstərilənlərlə yanaşı, ərzaq məhsullarının ixracı fəaliyyətinin genişlənməsi və gəlirliliyin artmasına təsir edən amillər də müəyyən edilmişdir. Bu amillərə aşağıdakılar daxil edilmişdir: müvafiq normativ-hüquqi bazanın möhkəmləndirilməsi, inzibati müdaxilələrin aradan qaldırılması, ixracın təşviqi sisteminin təkmilləşdirilməsi, texnologiyaların transferinin stimullaşdırılması, loqistik sistemlərin, habelə xarici ticarət üzrə ixtisaslaşdırılmış infrastrukturun modernləşdirilməsi və s.

14. Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması üzrə əlverişli qərarın qəbul edilməsi alqoritminin addımlarının aşağıdakı ardıcıllığını məqsədəuyğun hesab edirik: 1) Daxili bazarda müəssisənin mövqeyinin təhlili və rəqiblərlə müqayisədə həmin mövqenin müasir vəziyyətinin və müvafiq perspektivlərin səciyyələndirilməsi. 2) Xarici bazarın təhlili mərhələsində aşağıdakı göstəricilər təhlil olunur: xarici bazarın tutumu, xarici bazara əlyetənlik, xarici bazarın həssaslığı (cavab reaksiyasının xarakteri), xarici bazarın stabilliyi. 3) Xarici bazarda rəqabətin (rəqabət mühitinin) təhlili. 4) Marketinq imkanlarının və təhlükələrinin aşkar edilməsi və qiymətləndirilməsi. 5) Potensial məqsədli perspektiv xarici bazarın seçilməsi. 6) Konkret xarici bazara çıxış yollarının seçimi barədə qərarın qəbul edilməsi. 7) Beynəlxalq marketinq strategiyasının işlənib hazırlanması. 8) Xarici bazarda fəaliyyətin taktiki proqramının işlənib hazırlanması. 9) Müəssisənin xarici bazarda fəaliyyətinin nəticələrinin təhlili və təshihlərin aparılması.

15. Kənd təsərrüfatı müəssisələrin xarici bazara çıxışı barədə qərarın qəbulu üzrə tövsiyə olunan alqoritmin təkmilləşdirilməsi məqsədilə aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik: xarici bazara çıxış sisteminin determinasiyalılığı azaldıqca alqoritmin addımları və onların ardıcıllığında müşahidə edilən fərqlər

özünü daha əyani şəkildə göstərəcəkdir; müxtəlif üsul və vasitələrin birgə tətbiqi halında ekspert texnologiyaları ekonometriyanın digər üsul və vasitələrinin tətbiqi nəticələrini yoxlamaq üçün əlavə imkan kimi nəzərdən keçirilməlidir; xarici bazarın təhlili mərhələsində sosial xarakterli göstəricilərin əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğundur; istehsal müəssisəsinin müqayisəli rəqabət üstünlükləri müəyyən edilərkən işçi heyətin xarakteristikaları qismində innovasiyalara açıqlıq dərəcəsi göstəriciləri təhlilə cəlb olunmalıdır; müəssisəsinin xarici bazardakı fəaliyyətinin taktiki proqramı işlənib hazırlanarkən həmin fəaliyyəti detallaşdırılmış mərhələ və addımlara bölməklə yanaşı, təminat altsistemlərinin (maliyyə, kadr, informasiya və digər təminat altsistemləri) keyfiyyətinə birmənalı tələblər qoyulmalıdır; müəssisənin xarici bazarda fəaliyyətinin nəticələrinin təhlilinin səmərəliliyi, müəssisənin xarici bazara çıxış proqramı əsaslandırılarkən üstünlük verilən prinsiplərə və metodologiyaya əsaslanmalıdır.

16. Kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması əməliyyatlarının sadələşdirilməsi xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsinin mühüm istiqamətidir. Bu məqsədlə tranzaksiya məsrəflərinin azaldıl-ması üçün kompleks tədbirlər həyata keçirilməli, o cümlədən standartların və digər normativ sənədlərin yenilənməsi prosesi sadələşdirilməlidir.

17. Kənd təsərrüfatında ixrac potensialının gücləndirilməsi üçün aşağıdakı tədbirlərin görülməsini məqsədəuyğun hesab edirik: qlobal və regional aqrar-ərzaq bazarının konyukturuna uyğunlaşmaq üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi; iqtisadi, sosial, ekoloji, idarəetmə və digər xarakterli risklərin ixrac potensialına təsirinin minimuma endirilməsi; istehsalın və onun nəticələrinin keyfiyyətinin yüksəldilməsi, daxili aqrar istehsalçının rəqabət qabiliyyətinin yüksəldilməsinə və ixracın stimullaşdırılmasına məsrəflərin nisbətinin səmərəli idarə edilməsi; məqbul start şərtlərinə və ahəngdar fəaliyyət göstəricilərinə malik olan aqrar istehsalçı subyektlərə əsaslandırılmış vergi-kredit güzəştlərinin təqdim olunması.

18. Məhsulu xarici bazara çıxarılacaq kənd təsərrüfatı sahələrinin seçimi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır: xammal təchizatının vəziyyəti, müvafiq infrastrukturun təşəkkülü və inkişafı

səviyyəsi; idxalı əvəzləmə təcrübəsinin istifadə arealının genişlənməsi imkanları; daxili investisiyaların start parametrləri və dinamikası; aqrar sahənin ixrac potensialının fəallaşdırılması və müqayisəli üstünlüklərin reallaşdırılması səviyyəsi və s.

19. Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsi üçün: idxal-ixrac əməliyyatlarının optimal mexanizmi formalaşdırılmalı; ixrac fəaliyyətinin şaxələndirilməsinin optimal həddi müəyyən edilməli; yerli istehsalçılara xarici bazarlarda öz mövqelərinin möhkəmləndirilməsi istiqamətində dəstək verilməli; milli brend yaratma altsisteminin təşəkkülü sürətləndirilməli; xarici bazarlara çıxış sistemində təzə və emal olunmuş kənd təsərrüfatı məhsullarının nisbəti optimallaşdırılmalı; xarici bazarlara çıxışı barədə qərarların hazırlanması və icra olunmasında "dövlət - özəl" bölmə əməkdaşlığı imkanlarından maksimum istifadə olunmalıdır.

20. Böyük Qarabağ zəfərindən irəli gələn strateji vəzifələr və hədəflər nəzərə alınmaqla, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, onların emal olunması və rəqabətqabiliyyətli aqrar məhsulların milli brendlər kimi dünya bazarlarına çıxarılması potensialı obyektiv və fundamental olaraq araşdırılmalı, Qarabağ regionunun adlarından ibarət əmtəə nişanları almaqla, həmin məhsulların xarici bazarlara çıxış imkanların artırılması və genişləndirilməsi tədbirləri həyata keçirilməlidir və s.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU AŞAĞIDAKI ELMİ ƏSƏRLƏRDƏ DƏRC EDİLMİŞDİR:

1. Xarici bazarlarda çıxış strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinin konseptual məsələləri // Bakı: Kooperasiya" jurnalı, 2017, № 03(46). – S.203-208.

2. Kənd təsərrüfatı məhsulları istehsalçılarının beynəlxalq iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirməsinin metodiki aspektləri // Bakı: "Elmi Əsərlər" jurnalı. 2017. – № 04. – S.38-44.

3. Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi məsələləri // Bakı: "Elmi Əsərlər" jurnalı. – 2017. – № 02. – S.12-17.

4. Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış strategiyasının nəzəri-metodoloji aspektləri // Bakı: “Azərbaycan Aqrar Elmi” jurnalı. 2017. – № 04. – S.189-192.

5. Xarici bazarlara çıxışının stimullaşdırılması aqrar sahənin intensiv inkişafının mühüm şərtidir / AMEA-nın müxbir üzvü, i.e.d., prof. Akif Musayevin anadan olmasının 70 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 12 oktyabr 2017. – s.213-214.

6. Xarici bazarlara çıxış barədə qərarın qəbulu üzrə əlverişli alqoritmin seçilməsi // Bakı: “Azərbaycan Aqrar Elmi” jurnalı. 2018, №1, s.175-179.

7. Методы и формы выхода на внешние рынки, особенности аграрно-продовольственного сектора // Международный научный журнал, Москва: 2018, №2 – s. 73-86.

8. Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının reallaşdırılmasının alqoritmi / Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, Kooperasiya Universiteti. 01 iyun 2018-ci il. – s.455-459.

9. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazara çıxışı mühitinin qiymətləndirilməsi // Bakı: “Kooperasiya” jurnalı, 2019. – № 02(53), – S. 152-157.

10. Kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxışı sisteminin səmərəliliyinin yüksəldilməsi istiqamətləri // Bakı: “Maliyyə və uçot” jurnalı, 2019, №5. – s. 67-73.

11. Краткая характеристика условий Азербайджанских производителей сельскохозяйственной продукции на зарубежные рынки / Евразийское научное объединение «Наука и современность 2020» 59-ая международная научная конференция. Москва: 2020, №1, (59). – s. 178-180.

Dissertasiyanın müdafiəsi “18” noyabr 2021-ci il tarixində saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18_oktyabr 2021-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2021
Kağızın formatı: (60x84) 1/16
Həcm: 45183 işarə
Tiraj: 100 ədəd